

Beləcə, bir sıra mədəni-maarif müəssisəsinə baş çəkdikdən sonra yolumuzu musiqi məktəbindən də saldıq. Bəri başdan qeyd edək ki, Ağstafada xeyli dəyişikliyin şahidi olduq. Təcrübəli mədəniyyət xadimi Gülgün Kərimovun yüksək təşkilatçılığı ilə rayonda çox iş görülüb.**

Eyni fəallığı musiqi məktəbində də müşahidə etdik. Söhbət zamanı Arif müəllim aşağıdakıları söylədi:

- Ağstafa şəhər musiqi məktəbi 1975-ci ildən yaradılıb. İlk illər məktəbdə 44 nəfər şagird, 7 nəfər müəllim olmuşdur. Məktəb Ağstafa şəhəri H.Abbas küçəsi 2 № li ünvanda yerləşir. Əvvəllər məktəbdə 8 sinif otağı, 6 fortepiano aləti, 25 ədəd stul, 6 ədəd stol və s. olmuşdur.

Hal-hazırda məktəbdə 25 sinif otağı, 80 yerlik konsert zalı, 2 royal, 18 ədəd pianino, 5 qarmon, 2 tar, 1 qaval, 2 saz və 3 nağara aləti, stol, stul və digər avadanlıqlar vardır. Məktəbdə 267 nəfər şagird təhsil alır. Bu şagirdlərə 76 nəfər müəllim musiqini tədris edir. Məktəbdə fortepiano, tar, kamança, saz, nağara, skripka, qarmon, muğam ixtisasları tədris olunur.

Məktəb rayon mədəniyyət və turizm şöbəsi tərəfindən metodiki vəsaitlər və inventar avadanlıqlarla təmin edilir.

Ağstafa uşaq musiqi məktəbi respublikada keçirilən müsabiqə və festivallara fəal qoşulur. 2010-cu ildə məktəbin şagirdi Kərimli Əfsanə Şaiq qızı Aşıq Şəmşir adına V Respublika müsabiqəsində I dərəcəli diplom və laureatı adına, Kərimli Zaur





**Müsahibimiz Ağstafa Rayon Hüseyn Arif adına uşaq musiqi məktəbinin direktoru Arif Əliyevdir. Arif müəllimlə iş yerində görüşdük. Rayon mədəniyyət və turizm şöbəsinin müdiri Gülgün Kərimovla bölgədə aparılan mədəni tədbirlər barədə maraqlanarkən o, "Hər şeyi yerlərdə öz gözünüzlə görsəniz daha yaxşı olar", - deyə müəssisələrə baş çəkməyi məsləhət bildi.**

# Yeniliklər çoxdur

Rauf oğlu "Hünər və vətənpərvərlik mahnıları" festivalında III yerə, Xəlilov Vüqar Akif oğlu xalq çalğı alətləri üzrə II Respublika müsabiqəsində uğurlu çıxışına görə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tərifnaməyə layiq görülmüşdür.

Məktəbin məzunlarından Respublikanın musiqi ocaqlarında öz fəaliyyətlərini davam etdirənlər çoxdur. Bunlardan Xəlilova Gülçiçək Oqtay qızı hal-hazırda Bülbül adına musiqi məktəbində nəzəriyyə müəllimi kimi, Nəsibova Sevda Vaqif qızı - Azərbaycan Dövlət Musiqi Akademiyasının bəstəkarlıq şöbəsini bitirdikdən sonra bəstəkarlıq fəaliyyəti ilə, Azərbaycan Dövlət Musiqi Akademiyasının daha bir məzunu Qasımova Pərvanə Qasım qızı hal-hazırda Soçi şəhərində musiqi fəaliyyətini davam etdirməklə məşğul olur.

Məktəbin daha bir məzunu İsmayılova Kəmalə Fərman qızı hal-hazırda Azərbaycan Dövlət Musiqi Akademiyasının nəzəriyyə şöbəsində təhsilini davam etdirir.

Məktəbin qabaqcıl müəllimlərindən Abbasquliyeva Elmira Kamal qızı, Musayeva Sevda Musa qızı, Hüseynova Zülfiyyə Nizami qızı, Hümbətov Elman Muxtar oğlu, Hüseynova Gültəkin Hüseyn qızı həvalə olunan işin öhdəsindən məharətlə gəlirlər.

Cari tədris ilində keçirilən tədbirlərə misal olaraq görkəmli Azərbaycan bəstəkarı Oqtay Zülfüqarovun məktəbə dəvət olunmasını, Azərbaycan və klassik Avropa bəstəkarlarının əsərlərindən ibarət konsertlərin təşkilini, muğam gecələrinin keçirilməsini, əlaçı şagirdlərin valideynlər qarşısında verdikləri hesabat konsertlərini, orta məktəb şagirdləri və hərbi hissələrdə əsgərlərimiz qarşısında şagirdlərin çıxışlarını, rayon səviyyəli tədbirlərdə məktəbin müəllim və şagirdlərdən ibarət ansambılların çıxışlarını qeyd etmək olar.

Ağstafa uşaq musiqi məktəbini hər il orta hesabla 45-50 nəfər bitirir ki, bu şagirdlərin böyük bir qismi orta ixtisas musiqi məktəblərinə qəbul olunur.

Bir neçə söz də həmsöhbətimiz haqqında.

**Məktəbin direktoru Əliyev Arif Salman oğlu 1964-cü ilin yanvar ayının 1-də Oğuz rayonunun Buçaq kəndində anadan olub. Qəmbər Hüseynli adına Gəncə Musiqi Texnikumunu bitirib. 1986-cı ildən tar müəllimi kimi Ağstafa UMM-də fəaliyyətə başlayıb. 1992-ci ildən məktəbin direktoru vəzifəsində çalışır.**

**B. ZAYRALIQIZI**

